

*Görün bütün aparıcı dünya gücləri ilə bizim əlaqələrimiz nə dərəcədə səmimidir, səmərəlidir və bizim məqsədlərimizə cavab verir. Səbəb nədir? Səbəb bizim düzgün siyasətimizdir, səbəb bizim dürüstlüyümüzdür, sözlə imza arasındakı vəhdətdir və səbəb bizim daxili gücümüzdədir. Çünki bizim bütün tərəf-müqabillərimiz çox yaxşı bilirlər ki, Azərbaycanın çox güclü daxili potensialı var. Biz onu müharibə dövründə, postmüharibə dövründə göstərdik. Bilirlər ki, Azərbaycanda milli həmrəylik var, xalq–iqtidar birliyi var və biz ləyaqətli ölkə kimi bütün tərəfdaşlarla bərabərhüquqlu, dostluq və əməkdaşlıq əsasında münasibətlər qura bilmişik. Hesab edirəm ki, bu, bizim böyük nailiyyətimizdir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Xalq – iqtidar birliyi uğurlu inkişafın əsas amillərindən biridir

***Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasət xəttini dövrün tələblərinə uyğun olaraq uğurla yeniləşdirməklə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 18 ildə respublika həyatının bütün sahələrində dinamik inkişafa, hər bir Azərbaycan ailəsinin rifahının yaxşılaşmasına, təhlükəsizliyinin təmin edilməsinə, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsinə, nəhayət, Vətən müharibəsində tarixi Qələbə qazanmaqla ərazi bütövlüyümüzün bərpasına nail olunub.***

***Böyük siyasi, diplomatik səy hesabına əldə edilən Qarabağ zəfəri isə Azərbaycanın tarixi uğuru, işğalçı Ermənistanın və dünya erməniliyinin ağır məğlubiyyətinin ifadəsi kimi artıq tarixə yazılıb.***

Yeri gəlmişkən, Vətən müharibəsi günlərində Azərbaycana güclü təhdidlər oldu. Ancaq bu təzyiqlər ölkəmizi haqq yolundan döndərə bilmədi. Dövlətimizin başçısının qeyd etdiyi kimi: “Heç kim bizim qabağımızda dura bilməz, bizə şərt qoya bilməz. Bizə müharibənin ilk günlərində şərt qoymaq istəyən, hədələmək istəyən, şərləmək istəyən ölkələrin, bəzi Qərb ölkələrinin nümayəndələri sərt cavabımızı aldılar. Gördülər, biz o ölkələrdən deyilik ki, kiminsə qabağında baş əyək və mən də o liderlərdən deyiləm ki, kimdənsə nə isə qəbul edim hansısa sözü. Artıqlaması ilə cavab vermişəm və verəcəyəm lazım gəldikdə”.

Prezident, Ali Baş Komandan İlham Əliyevin bu cür qətiyyəti, milli birliyimiz və ordumuzun qəhrəmanlığı sayəsində Vətən müharibəsi qələbə ilə başa çatdı, işğalçı Ermənistan təslim aktına imza atdı. Döyüş meydanında, diplomatiya sahəsində qazanılan parlaq qələbə Azərbaycanın güc-qüdrətini və xalqımızın nəyə qadir olduğunu bir daha bütün dünyaya göstərdi.

Onu da deyək ki, Vətən müharibəsi Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasətçi olmaqla yanaşı, həm də mahir sərkərdəlik bacarığını, çətin, ağır şəraitdə düzgün qərar vermək istedadını bir daha bütün dünyaya nümayiş etdirdi. Dövlətimizin başçısı savaşdan sonra çıxışlarının birində dedi: “Biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü, müstəqilliyimizi göstərdik. Bu müharibədə biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Amma haqq yolundan dönmədik, daim irəliyə getdik, qələbəyə doğru inamla addımladıq. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq”.

Bəli, Vətən müharibəsində əldə edilən parlaq qələbəmizin əsasında Prezident İlham Əliyevin qətiyyəti, müdrik diplomatik siyasəti, Silahlı Qüvvələrimizin güc-qüdrəti nə qədər mühüm əhəmiyyətə malik idisə, Xalq – Prezident – Ordu vəhdəti, birliyi də bir o qədər önəm daşıyırdı.

Dövlətimizin başçısı müharibənin davam etdiyi günlərdə xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi müsahibələri ilə də respublikamızın haqq səsini dünya ictimaiyyətinə tutarlı arqumentlərlə çatdırdı, həmçinin Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin döyüşlərin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldı.

Hərbi əməliyyatların aparılmasında Ali Baş Komandan İlham Əliyevin müntəzəm olaraq çatdırdığı qələbə xəbərləri, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən canlı qüvvəsi və hərbi texnikası barədə məlumatları da ölkəmizin hər bir vətəndaşında qürur, fərəh hissi doğururdu, xalqın dövlətimizin başçısına, rəşadətli ordumuza inamını daha da gücləndirirdi.

İndi doğma, əzəli-əbədi Qarabağ torpağımızda genişmiqyaslı tikinti-quruculuq tədbirləri sürətlə aparılır. İşğaldan azad edilən ərazilərimizdə erməni vandallarının illərlə törətdikləri vəhşi əməllər hər addımda nəzərə çarpır. Viran qoyulan şəhər və kəndlərimiz, dağıdılan, təhqir edilən məscidlərimiz, yer üzündən silinən tarix və mədəniyyət abidələrimiz düşmənin nə qədər barbar, vəhşi olduğunu göstərir.

Əlbəttə, bütün dağıntılar məqsədli şəkildə edilib. Bu mənfur millət Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədi güdüb. Bu torpaqlarda bütün milli izlərimizi silməyə çalışıblar.

Erməni vandalizminin, təkcə Azərbaycan xalqına yox, ümumən bəşəriyyətə təhlükə yaradan erməni faşizminin ifşası üçün yerinə yetirilməli vəzifələrə diqqəti yönəldən Prezident İlham Əliyev deyib: “Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır... Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək”.

Erməni vandallarının xarabazara çevirdikləri yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi hazırda dövlətimizin qarşısında duran ən mühüm vəzifədir. Dövlətimizin başçısı hər zaman bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir. Bax, elə buna görə də xalqımız Qarabağın tezliklə dünyanın ən abad ərazilərindən birinə çevriləcəyinə, cənnət diyar kimi tanınacağına əmindir.

Azərbaycan Prezidenti son 18 ildə xalqımızı qələbəyə addım-addım yaxınlaşdırmaqla, ordumuzun güc-qüdrətini artırmaqla bərabər, həm də hər bir ölkə vətəndaşının maraqlarını diqqət mərkəzində saxlayıb. Bu müddətdə respublikada hərtərəfli dinamik inkişaf, sabitlik və əmin-amanlıq təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirilib. Prezident İlham Əliyevin yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilib. Hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan ölkə rəhbəri daim xalq ilə təmasda olub, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyib və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verib.

Fikrimizin təsdiqi olaraq, son illərdə sosial müdafiə və sosial təminat sahəsində aparılan islahatların müəyyən nəticələrini xatırlatmaq istərdik:

–əməkhaqqının minimum səviyyəsi 3 dəfə artırılaraq 250 manata, orta aylıq əmək haqqı isə 2 dəfədən çox artırılaraq 707 manata çatdırılıb;

–pensiyaların minimum məbləği 2,4 dəfə artırılaraq 200 manata, orta aylıq pensiya 112,9 manatdan 2,7 dəfə artaraq 302,2 manata, yaşa görə 117,6 manatdan 2,8 dəfə artaraq 331,4 manata, əlilliyə görə 110,7 manatdan 2,4 dəfə artaraq 261 manata, ailə başçısını itirməyə görə orta aylıq pensiya 89,2 manatdan 2,9 dəfə artaraq 263 manata çatdırılıb;

–müavinətlərin orta aylıq məbləği 39,68 manatdan 3 dəfə artırılaraq 119 manata, maksimum məbləği 3 dəfəyə qədər artırılaraq 61 manatdan 150 manata çatdırılıb;

–aylıq və birdəfəlik müavinətlərlə təmin olunanların sayı son 10 ildə 26 faiz artırılaraq 397 mindən 500 minə çatdırılıb;

–Prezidentin aylıq təqaüdü ilə təminat proqramının əhatə etdiyi şəxslərin sayı 33,6 mindən 10 dəfəyə qədər artırılaraq 300 minə, təqaüdün maksimal məbləği isə 1000 manatdan 2000 manata çatdırılıb;

–2010-cu ildən şəhid ailələri üçün təqaüdlər 150 manatdan 2020-ci ildə 300 manata qaldırılıb, 2021-ci ildə bu göstərici 500 manat olub;

–müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü I dərəcə əlilliyi olanlar üçün 90 manat, II dərəcə əlilliyi olanlar üçün 70 manat, III dərəcə əlilliyi olanlar üçün 50 manatdan müvafiq olaraq 400 manata, 350 manata və 300 manata çatdırılıb.

Bütün bunlarla bərabər, respublikada ünvanlı dövlət sosial yardımın hər ailəyə düşən orta aylıq məbləği 2,1 dəfə artaraq 2020-ci ilin sonuna 240 manata yüksəlib. Ödənişlərin maliyyə təminatı 2010-cu illə müqayisədə 3,7 milyon manat (2,8 dəfə) artaraq 5,7 milyon manat təşkil edib. Ehtiyac meyarı 65 manatdan 2,5 dəfə artaraq 160 manata, yaşayış minimumu 2,2 dəfə artaraq 87 manatdan 190 manata çatıb. Bu il üçün ehtiyac meyarı isə 170 manat, yaşayış minimumu 196 manat müəyyən edilib.

Ölkənin əmək bazarının daha da canlanması, məşğulluq sisteminin inkişafı da diqqət mərkəzində saxlanılıb. Bunun üçün 2006-2015 və 2019-2030-cu illər üzrə Məşğulluq Strategiyaları hazırlanıb və həyata keçirilməsinə başlanılıb. Məşğulluğun dəstəklənməsi məqsədilə özünüməşğulluq kimi sosial proqramlar reallaşdırılıb. Şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə ümumilikdə 9 100-dən çox mənzil verilib, onlardan 5 600-ü və ya 62 faizi son 10 ildə təqdim edilib.

Azərbaycanda keçmiş qaçqın və məcburi köçkünlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsinə də xüsusi diqqət yetirilib. Belə ki, 2010-2020-ci illərdə 59 yeni qəsəbə və hündürmərtəbəli binalardan ibarət yaşayış kompleksi tikilərək istifadəyə verilib. Beləliklə, 31 min keçmiş məcburi köçkün ailəsinin, yəni 118 min nəfərin mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı ilə ilk dəfə özəl sektor tərəfindən tikilmiş 4 yaşayış kompleksində 5 minə yaxın keçmiş məcburi köçkün ailəsi müvəqqəti məskunlaşıb.

Yuxarıda qeyd edilənlərlə yanaşı, ölkədə reabilitasiya və sosial xidmətlər də genişləndirilib və institutlaşdırılıb. Belə ki, 2020-ci ildə 6 reabilitasiya müəssisəsi (Lənkəran, Xaçmaz, Şirvan, Şəki, Sumqayıt və Göygöl) istifadəyə verilib. Bu il isə 4 reabilitasiya müəssisəsinin (Şağan, Şəmkir, Qəbələ, Şamaxı) istifadəyə veriləcəyi nəzərdə tutulub.

DOST konsepsiyası çərçivəsində 3 DOST Mərkəzi yaradılıb. Cari ildə 4-cü DOST Mərkəzinin açılışı olub. “Bir pəncərə” sistemi tətbiq edilib və bu, 132 növ xidməti əhatə edib. Bunun nəticəsində vətəndaş məmnunluğu 97 faizə çatıb.

Bütün bunlar, eləcə də dövlətimizin başçısının paytaxtda və bölgələrdə vətəndaşlarla keçirdiyi səmimi görüşlər, onların qayğıları ilə yaxından maraqlanması, insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində verilən qərarlar ölkəmizdə xalq-iqtidar birliyini daha da möhkəmləndirib, xalqın Prezidentinə olan inamını daha da artırıb. Bir sözlə, bütün bu amillər, həm də Prezident və xalq birliyi konsepsiyasının əsas qayəsini təşkil edib.

Dövlət başçısının rəhbərliyi ilə ötən illərdə uğurla reallaşdırılan sosial-iqtisadi islahatların nəticəsi olaraq respublikamız hazırda qlobal maliyyə, geosiyasi və iqtisadi böhrandan uğurla çıxan, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərdən biri kimi tanınır, adı beynəlxalq aləmdə sosial-iqtisadi göstəriciləri ildən-ilə yüksələn nüfuzlu ölkə kimi çəkilir.

Prezident İlham Əliyevin sosial-iqtisadi inkişafa göstərdiyi diqqət və qayğı nəticəsində hazırda respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına yönələn bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar da Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Məhz yuxarıda qeyd edilən məqamları nəzərdə tutan Prezident İlham Əliyev çıxışlarının birində deyib: “Bütün bu nailiyyətlər deməyə əsas verir ki, inkişafımız bundan sonra da uğurlu olacaq, gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir. Sabitliyin də təminatçısı Azərbaycan xalqıdır, onun rəyidir, onun bizə verdiyi dəstəkdir. Xalq–iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda, dinlərarası münasibətlər də bizim gücümüzü artırır”.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***